**“ABAK-AZ CROVVE LTD” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN DİREKTORU CƏNAB ZAMİN HÜSEYNOVA**

**Hörmətli Zamin müəllim!**

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri adından “ABAK-AZ CROVVE LTD” məhdud məsuliyyətli cəmiyyətinin fəaliyyətə başlamasının 20 illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi qəlbdən təbrik edirəm.

“ABAK-AZ CROVVE LTD” MMC 2003-cü ilin aprel ayından etibarən Azərbaycan Respublikasında peşəkar xidmətlər göstərən şirkət kimi böyük uğurlar əldə etmişdir. Bu gün ölkəmizdə sayılan auditor xidməti şirkətlərindən biri olan “ABAK-AZ CROVVE LTD” MMC Azərbaycanda şirkətlərə və dövlət müəssisələrinə Beynəlxalq Audit Standartlarına uyğun peşəkar audit və məsləhət xidmətləri göstərir.

Ötən dövr ərzində “ABAK-AZ CROVVE LTD” məhdud məsuliyyətli cəmiyyətinin rəhbəri və Auditorlar Palatasının Şurası yanında Milli auditə dəstək Komitəsinin sədri olaraq çalışmış, nümunəvi fəaliyyət prinsipi ilə ölkədə audit sahəsində keçirilmiş tədbirlərdə iştirakı ilə yanaşı beynəlxalq səviyyəli konfranslarda, simpoziumlarda, forumlarda, seminarlarda və digər tədbirlərdə Auditorlar Palatasının üzvü kimi iştirak etmiş, daim öz sifarişçilərinin yanında olmuş, onları hər zaman dəstəkləmiş və onların fəaliyyətində şəffaflığın artırılmasında mühüm rol oynamışsınız.

Minnətdarlıq hissi ilə qeyd edirik ki, Auditorlar Palatasının keçirdiyi beynəlxalq tədbirlərə “ABAK-AZ CROVVE LTD” məhdud məsuliyyətli cəmiyyəti daim sponsorluq etməklə yanaşı, həmin tədbirlərdə fəal iştirakınız həmişə rəğbətlə qarşılanmışdır.

20 il ərzində audit qanunvericiliyinin təkmilləşdirilməsi, normativ aktların, metodik vəsaitlərin, proqramların və digər sənədlərin hazırlanması və tətbiqində əməyiniz yüksək qiymətləndirilərək, dəfələrlə təşəkkür elan edilmiş, “Fəxri Fərman”na və 2010-cu ildə Auditorlar Palatasının yüksək mükafatı olan “Fəxri Auditor” döş nişanına layiq görülmüsünüz. Xüsusi ilə əlamətdar və qürurvericidir ki, Azərbaycan Respublikası Auditorlar Palatasının 25 illiyi münasibətilə auditor fəaliyyətinin inkişafındakı xidmətlərinizə görə Siz Azərbaycan Respublikası Prezidentinin 2021-ci 15 aprel tarixli Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif edilmisiniz.

**Hörmətli Zamin müəllim!**

Biz ölkəmizin inkişafı naminə fəaliyyətinizin gələcəkdə daha da genişləndirilməsi istiqamətində səylərinizin davam etdirilməsinə ümid bəsləyirik. Ölkəmizdə yeni dövrün çağırışları nəzərə alınmaqla şirkətinizin auditor təşkilatları arasında daim ön sıralarda olmağını arzulayırıq.

**Dərin hörmətlə,**

Azərbaycan Respublikası Auditorlar Palatası
Chamber of Auditors of Azerbaijan Republic

**Vahid NOVRUZOV**
**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri,**
**iqtisad elmləri doktoru, professor**